AZƏRBAYCAN BANKLAR ASSOSİASİYASI

# TƏDİYƏ BALANSI - 2017 /I RÜB/

*Kəsirdən profisitə doğru*

**Bakı 2017**

## Mündəricat

**Cari əməliyyatlar hesabı** ........................................................................ **3**

**Maliyyə hərəkəti hesabı** ........................................................................ **5**

**Ehtiyat aktivlərin dəyişməsi** ................................................................ **7**

*Diaqram 1. Cari əməliyyatlar balansı və neft qiyməti* ............................... 3

*Diaqram 2. Ehtiyat aktivlərin dəyişməsi* ................................................... 7

*Cədvəl 1. Cari əməliyyatlar balansının dinamikası* .................................. 4

*Cədvəl 2. Maliyyə hərəkəti balansının dinamikası* .................................... 6

# 1. Cari əməliyyatlar hesabı

**1.1. 2017-ci ilin I rübündə tədiyə balansının cari əməliyyatlar hesabının kəsri profisitlə əvəz olunmuşdur**: əvvəlki ilin eyni dövrü ilə müqayisədə ≈ 62% artan neft qiymətləri *(neftin orta rüblük qiyməti 32.8-dən 53 dollar/barrelə yüksəlmişdir)* cari əməliyyatlar hesabının -432.2 mln.USD həcmində kəsrinin +380.2 mln.USD profisitlə əvəz olunması ilə nəticələnmişdir.

**Diaqram 1.** *Cari əməliyyatlar balansı və neft qiyməti*




**1.2. Dövr ərzində neft-qaz sektoru üzrə ümumilikdə cari hesab profisiti 3 dəfəyə yaxın artaraq[1] +1516.3 mln.USD təşkil etmişdir.** Neft-qaz sektorunun xarici ticarət üzrə profisiti 1476.4 mln.USD artaraq +3028.8 mln.USD-ə çatmışdır. Sektor üzrə xidmətlər və ilkin gəlirlər balansında isə, uyğun olaraq, -917.5 mln.USD və -595 mln.USD həcmində kəsir formalaşmışdır ki, bu qeyd olunan iki istiqamət üzrə əvvəlki ilin eyni dövründə müşahidə edilmiş olan kəsirdən -482.6 mln.USD çoxdur.

**1.3. Qeyri-neft sektoru üzrə cari hesab kəsrində nisbi artım müşahidə edilmişdir:** dövr ərzində sektor üzrə kəsir 181.4 mln.USD böyüyərək -1136.1 mln.USD təşkil etmişdir. Sektor üzrə kəsrin böyüməsi xarici ticarət və xidmətlər balansı kəsirlərinin

[1] Başqa qeyd olmadığı halda hesabatda bütün müqayisələr əvvəlki ilin eyni dövrü (2016-cı ilin I rübü) ilə aparılmışdır.

artımı, eyni zamanda ilkin gəlirlər balansının müsbət saldosunun azalması hesabına baş vermişdir. Dövr ərzində təkrar gəlirlər balansının profisiti isə 3.3 mln.USD-dən +114.7 mln.USD-ə yüksəlmişdir *(əsasən digər ölkələrdən Azərbaycana göndərilən transfertlər-pul baratları hesabına formalaşır)*. Həmçinin dövr ərzində turizm və nəqliyyat sektorları üzrə profisit müşahidə edilmişdir.

**Cədvəl 1.** *Cari əməliyyatlar balansının dinamikası*

| | *mln.USD* | | |
|---|---|---|---|
| | **2016 I Rüb** | **2017 I Rüb** | **Əvvəlki ilin eyni dövrü ilə müqayisədə dəyişmə** |
| **Cari Əməliyyatlar Hesabı üzrə Balansı** | -432.2 | 380.2 | 812.4 |
| Neft-qaz sektoru | 522.5 | 1516.3 | 993.8 |
| Qeyri-neft sektoru | -954.6 | -1136.1 | -181.4 |
| ***Xarici Ticarət Balansı*** | 621.7 | 1889.9 | 1268.2 |
| Neft-qaz sektoru | 1552.3 | 3028.8 | 1476.4 |
| Qeyri-neft sektoru | -930.6 | -1138.9 | -208.3 |
| ***Xidmətlər Balansı*** | -699.4 | -1037.1 | -337.6 |
| Neft-qaz sektoru | -645.5 | -917.5 | -272.0 |
| Qeyri-neft sektoru | -53.9 | -119.5 | -65.6 |
| Nəqliyyat | 64.9 | 16.9 | -47.9 |
| Turizm | 110.6 | 51.9 | -58.7 |
| Rabitə | 0.4 | -11.2 | -11.6 |
| Tikinti | -723.3 | -739.2 | -15.9 |
| Maliyyə xidmətləri | -0.5 | -4.6 | -4.1 |
| Hökumət xidmətləri | -22.8 | -18.9 | 4.0 |
| Digər xidmətlər | -128.6 | -331.9 | -203.3 |
| ***İlkin gəlirlər Balansı*** | -357.7 | -587.3 | -229.6 |
| Neft-qaz sektoru | -384.3 | -595.0 | -210.6 |
| Qeyri-neft sektoru | 26.6 | 7.7 | -18.9 |
| ***Təkrar gəlirlər Balansı*** | 3.3 | 114.7 | 111.4 |

Mənbə: Azərbaycan Respublikası Mərkəzi Bankının məlumatları əsasında tərtib edilmişdir.

## 2. Maliyyə hərəkəti hesabı

**2.1. 2017-ci ilin I rübündə ölkədən maliyyə axınları əhəmiyyətli dərəcədə azalmış, maliyyə hərəkəti hesabında əvvəlki ilin eyni dövründə müşahidə edilən -1928.9 mln. USD həcmindəki kəsir +308 mln.USD-lik profisitlə əvəz olunmuşdur.** Maliyyə hərəkəti hesabının cari mənzərəsi, əsasən qeyri-neft sektoru üzrə maliyyə hərəkəti hesabına formalaşmışdır. Bu dövrdə qeyri-neft sektoru üzrə kəsir -2601.5 mln.USD-dən -151.6 mln.USD-yə qədər azalmışdır. Neft sektoru üzrə isə +459.6 mln.USD profisit formalaşmışdır.

**2.2. Qeyri-neft sektoruna birbaşa xarici investisiyalar artmışdır.** Rüb ərzində sektora +307.5 mln.USD birbaşa xarici investisiya daxil olmuş və +78.3 mln.USD birbaşa investisiya Azərbaycandan digər ölkələrə istiqamətlənmişdir. Nəticədə sektorun birbaşa investisiyalar balansında +229.2 mln.USD profisit əmələ gəlmişdir ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə +206.1 mln.USD çoxdur.

**2.3. Neft-qaz sektoruna yönəldilən portfel investisiyalar hesabına maliyyə hərəkəti hesabının eyni adlı bölməsində +955.4 mln.USD profisit formalaşmışdır.** Bu əvvəlki ilin eyni dövrü ilə müqayisədə +352.8 mln.USD (58.5%) çoxdur. Dövr ərzində qeyri-neft sektoruna portfel investisiyaları daxil olmamış, sektorun xarici aktivlərində isə -28.9 mln.USD azalma baş vermişdir.

**2.4. Digər investisiyalar[2] üzrə kəsir kiçilmişdir.** Bu bölmə üzrə kəsir –1085.4 mln.USD təşkil etmişdir ki, bu əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 1539.6 mln.USD azdır. Dövr ərzində bu kanal ilə ölkədən +1843.7 mln.USD vəsait xaric olunmuş, +758.3 mln.USD daxilolma baş vermişdir.

[2] Buraya depozitlər və nağd valyuta, kredit və ssudalar, ticarət kreditləri və avanslar üzrə maliyyə hərəkəti daxildir.

**Cədvəl 2.** *Maliyyə hərəkəti balansının dinamikası*

| | mln.USD | | |
|---|---|---|---|
| | 2016 I Rüb | 2017 I Rüb | Əvvəlki ilin eyni dövrü ilə müqayisədə dəyişmə |
| **Maliyyə hesabı Balansı** | -1928.9 | 308.0 | 2236.9 |
| Neft-qaz sektoru | 672.6 | 459.6 | -213.0 |
| Qeyri-neft sektoru | -2601.5 | -151.6 | 2449.9 |
| ***Birbaşa investisiyalar üzrə Balans*** | 93.4 | 409.1 | 315.6 |
| Neft-qaz sektoru | 70.4 | 179.9 | 109.5 |
| Qeyri-neft sektoru | 23.1 | 229.2 | 206.1 |
| ***Portfel investisiyaları üzrə Balans*** | 602.7 | 955.4 | 352.8 |
| ***Digər investisiyalar üzrə Balans*** | -2625.1 | -1085.4 | 1539.6 |
| Neft-qaz sektoru | 29.9 | -675.8 | -705.6 |
| Qeyri-neft sektoru | -2654.9 | -409.7 | 2245.3 |

Mənbə: Azərbaycan Respublikası Mərkəzi Bankının məlumatları əsasında tərtib edilmişdir.

## 3. Ehtiyat aktivlərin dəyişməsi

**3.1. Neft qiymətinin artması və ölkədən maliyyə axınlarının azalması ölkənin ehtiyat aktivlərinin artmasına şərait yaratmışdır.** 2017-ci ilin I rübündə ölkənin ehtiyat aktivlərində 463.6 mln.USD artım müşahidə edilmişdir. Müqayisə üçün qeyd edək ki, ötən ilin I rübündə ölkədən maliyyə axınlarının nəticəsi olaraq ehtiyat aktivlər 1270.8 mln. USD azalmışdır.

**Diaqram 2.** Ehtiyat aktivlərin dəyişməsi *(mln.USD)*




Ümumilikdə, ehtiyat aktivlərin həcmində 2014-cü ilin sonuncu rübündən başlayaraq müşahidə edilən neqtiv meyil, ötən ilin II rübündən etibarən müsbət trendlə əvəz olunmuş, xüsusilə 2016-cı ilin sonuncu və cari ilin ilk rüblərində ehtiyatların artımı daha nəzərəçarpan olmuşdur (son iki rübdə cəmi 1.1 mlrd.USD-dən artıq).